## Rus dilinin xarici dil kimi (RXD) öyrədilməsinin ilkin mərhələsində xarici tələbələr arasında dinləmə bacarıqlarının formalaşması məsələsinə dair

Dos. E.S.Tağıyeva
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Annotasiya:** Məqalənin məqsədi hazırlıq mərhələsində hind tələbələrinin nitq fəaliyyətinin bir növü kimi dinləmə ilə əlaqəli RXD kimi tədrisinin metodik təcrübəsini ümumiləşdirməkdir. İdman Akademiyasında rus dilini xarici dil kimi tədris edən müəllimlər əvvəllər hind tələbə qrupları ilə işləmirdilər, buna görə hazırlıq mərhələsində bu mövzuda xüsusi ədəbiyyata müraciət etmək lazım gəldi. Hind tələbələrinə RXD kimi öyrədilməsinin xüsusiyyətlərini ortaya qoyan ciddi elmi iş hazırda praktik olaraq yoxdur ki, bu məqamda məqalənin elmi yeniliyini şərtləndirir.

**Açar sözlər:** rus dili xarici dil kimi (RXD), hind tələbələr, universitet hazırlıq mərhələsi, ünsiyyət bacarığı, dinləmə, səsmətnləri

## On the issue of formation of auditory skills among foreign students at the initial stage of teaching russian as a foreign language (RKI)

Dos. E.S. Tagiyeva
Azerbaijan State Academy of Physical Education and Sports

**Annotation:** The purpose of this article is to generalize the methodological experience of teaching RCTs related to teaching listening as a type of speech activity of Indian students at the stage of pre-university training. Teachers of RCTs at the Sports Academy had never before worked with groups of Indian students, so at the preparatory stage it became necessary to turn to specialized literature on this topic. Serious scientific work, revealing the specifics of teaching RCTs to Indian students, is currently practically absent. This is due to the scientific novelty of this article.

## AZƏRBAYCANDA ELEKTRON İDARƏETMƏNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

müəl.M.M.Sabirzadə
mehpara.sirinova@sport.edu.az
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Nəşr tarixi**
Qəbul edilib: 1 oktyabr 2019
Dərc olunub: 5 noyabr 2019
©2019 ADBTİA.Bütün hüquqlar qorunur.

**Annotation:** Müasir dövrdə elə bir sahə yoxdur ki, orada informasiya texnologiyalarının tətbiqindən istifadə olunmasın. Biz informasiyalaşdırılmış cəmiyyətdə, informasiya aləmində yaşayırıq. İnformasiyalaşdırma insan sivilizasiyasının qaçılmaz inkişaf mərhələsidir. Bu isə elə bir vasitədir ki, onun köməyi nəticəsində cəmiyyət özünü kifayət qədər tez və adekvat dərk edir, lazımolan əsas məsələlər həllini operativ və effektli şəkildə tapa bilir. İKT-nin geniş tətbiqi ölkəmizin ümumi sosial-iqtisadi inkişafına təkan verir, yoxsulluğun azaldılması vətəndaş-məmur münasibətlərinin normallaşdırılmasına imkan yaradır. Ona görə də,respublikamızda inkişafı daha da gücləndirmək üçün öz milli İKT strategiyasının işlənilməsi və daim təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.
**Açar sözlər:** cəmiyyət, sosial sistem, idarəetmə

**Giriş:** Müstəqillik əldə olunduqdan sonra Respublikamızda iqtisadi inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi məqsədilə müasir texnologiyaların və mütərəqqi üsulların tətbiqinə xüsusi diqqət yetirilməyə başlandı.

İqtisadiyyatın müxtəlif sahələrində aparılan islahatlar, istehsalın, məhsul satışından əldə olunan gəlirlərdən istifadə, dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrindən məqsədəuyğun şəkildə istifadə müvəffəqiyyətlərin əldə olunmasına səbəb oldu.

Yaşadığımız əsr informasiya və yüksək texnologiyalar əsridir. İnkişaf etmiş texnologiya məhsulları həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. İnformasiya texnologiyalarının (İT) inkişafı günümüzdə müxtəlif təşkilatların, şirkətlərin, dövlət qurumlarının fəaliyyətinə, iş prinsipinə, səmərəliliyinə təsir edən əsas amillərdən biridir. İT-in cəmiyyətin idarə olunması proseslərinə cəlb olunması elektron idarəetmə anlayışının yaranması ilə nəticələnmişdir **[2,3]**.

E-idaretmə dövlət xidmətlərinin daha yaxşı çatdırılması, biznes və sənaye müəssisələri ilə qarşılıqlı əlaqələrin inkişafı, informasiyaya çıxış vasitəsilə vətəndaş səlahiyyətlərinin genişləndirilməsi və daha səmərəli dövlət idarəetməsini nəzərdə tutur. Başqa sözlə, e-idarəetmə daxili əməliyyatları sadələşdirir və maksimum rahatlıq, az xərclə vətəndaşların bütün təbəqələrinin dövlət xidmətlərindən faydalanmasına kömək edərək dövlət idarələrinin fəaliyyətini yaxşılaşdırır. Lakin bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, bir çox cəhdlərə baxmayaraq e-idarəetmə xidmətləri hələ də istənilən vətəndaş - yönümlü xidmətləri göstərmir və həllini gözləyən bir sıra mühüm məsələlər mövcuddur**[3,4]**.

Son illərdə Respublika Prezidenti tərəfindən "elektron sənəd dövriyyəsi", "elektron dövlət", "elektron ticarət" haqqında verdiyi fərmanlar ölkəmizdə elektron idarəetmənin bərqərar olmasına və demokratik intellektual səviyyəsi yüksək cəmiyyətin qurulmasında mühüm addımdır. Maliyyə, bank və kredit əməliyyatlarının aparılmasında artrıq geniş şəkildə elektron variantdan istifadə edilir. Əmək haqqlarının, təqaüdlərin, müxtəlif yönümlü sosial yardımların plastik kartlarla ödənişi, müəssisə və təşkilatlar arasında, müəssisələrlə bank və bankların öz aralarındakı əməliyyatlar demək olar ki, bütövlüklə elektron variantda aparılır. Elektron ticarə - informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür**[2]**.

Əhalinin kommunal xərclərinin ödənilməsində də elektron ödəmələrdən istifadəyə başlanmışdır. Belə
ki, 2009-cu ildə artıq Bakı şəhərində kommunal xərclərin ödənilməsində elektron variant sınaqdan çıxarılmış və nəticələr gözlənildiyindən də yaxşı alınmışdır. Deməli əhalinin şəbəkə texnologiyalarının və elektron ödəmələrin tətbiqinə inamı artmışdır. Və beləliklə, insan şüurunun da müasir texnologiyalara sürətlə uyğunlaşması başlamışdır.

**Material və metodlar:** Hazırda Respublikamızın bir çox dövlət idarələrində və dövlət strukturlarında elektron idarəetmənin
tətbiqinə geniş yer verilir. Buna misal olaraq, vergi bəyannamələrinin doldurulması, gömrük deklarasiyalarını hazırlanması və bu sahələrdə vahid pəncərə sistemlərinin tətbiqi elektron idarəetmənin irəli sürdüyü tələblərə uyğundur. Son zamanlar ayrı-ayrı dövlət və hökümət idarələri, nazirliklərin xüsusi portalları yaradılır, onların xüsusi saytlarında gördükləri işlər, yeni qanun və qaydalar haqqında geniş məlumat verilir. Eyni zamanda bu saytlarda gündəlik məlumatların verilməsi də məhz dövlət və hökumət idarələrinin işində şəffaflığın təmin olunmasına xidmət edir. Lakin bəzi portallar və internet saytları mövcud olslar da onların iş prinsipi müasir tələblər səviyyəsində deyil. Elektron dövlətin və elektron hökumətin qurulmasında mühüm əhəmiyyəti olan elektron imza haqqında qəbul olunmuş qərarlar, onun hüquqi bazasının təşkili və Respublikada elektron imzanın tətbiqi mühüm əhəmiyyətə malikdir. Elektron imza haqqında Azərbaycan Respublikasının Qanunu elektron imzanın və elektron sənədin istifadəsinin, onların elektron sənəd dövriyyəsində tətbiqinin təşkilati,hüquqi əsasları ilə əlaqədar subyektlərin hüquqlarını müəyyən edir, aralarında yaranan

münasibətləri tənzimləyir**[2,3]**.

Elektron hakimiyyətin qurulmasının ilkin şərtlərindən biri ölkədə şəbəkə texnologiyalarından istifadə imkanlarının, mobil telefonlardan istifadənin səviyyəsinin yüksəkliyi nəzərdə tutulurdu. Bu gün respublikaməzda istifadə olunan telefon şəbəkəsinin əksər hissəsi elektron qurğularla təmin olunub. Bu isə şəbəkə texnologiyalarının tətbiqinə münbit şərait yaradır. Bütün bunlarla bərabər sürətli İnternetin tətbiqi üçün geniş imkanlara malik simsiz telefonlardan istifadə də inkişaf edir. Yaxın zamanlara qədər İnternet istifadəçilərini sayının aşağı olmasının səbəblərindən biri kimi İnternet xidmətlərinin qiymətinin digər region ölkələri ilə müqayisədə baha olması göstərilirdi. Lakin son zamanlarda respublikamızda İnternet xidmətlərini qiyməti dəfələrlə aşağı salınmışdır. Aydındır ki, bu şəbəkə texnologiyalrından istifadənin artmasına və bu xidmətlərin göğrafi ərazi baxımından daha geniş yayılmasına şərait yaradır. Elektron variantın tətbiqinin digər bir şərti texniki vasitələrlə təmin səviyyəsinin yüksəkliyidir. Artıq respublikada həm xarici istehsal, həm də ölkədaxili müəssisələrin istehsalı olan fərdi kompüterlərin sayı kifayət qədər artmışdır. Müxtəlif tədqiqatların aparılması, İKT-ları sahəsində gələcək proqramların əhalinin istək və təklifləri əsasında yaradılması üçün həm İnformasiya Texnologiyaları nazirliyində, həm də Milli Elmlər Akademiyasında xüsusi kompüter mərkəzləri fəaliyyətə başlamışdır. Son illərdə respublikamızda korporativ şəbəkələrin tətbiqinə və yeni şəbəkə texnologiyalarına əsaslanan xüsusi virtual əlaqələrdən istifadəyə diqqət artırılmışdır.Elektron idarəetmə və hakimiyyətin təşkili həm də informasiya texnologiyalarının mahiyyətinin bütün ölkə vətəndaşlarına çatdırılması, onun üstünlüklərinin təbliğini tələb edir. Hazırda respublikamızda ümumtəhsil məktəblərini ən aşağı siniflərindən bu texnologiyaların öyrənilməsinə başlanmışdır.

Elektron idarəetmə – informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin - operativliyinin yüksəldilməsini və insanların elektron xidmətlərə çıxışının asanlaşdırılımasını nəzərdə tutur. E-dövlətin yaradılmasında əsas məqsəd vətəndaşlara göstərilən xidmətlərin sadələşdirilməsinə, biznes, sənaye müəssisələri ilə əlaqələrin təkmilləşdirilməsinə, daha səmərəli dövlət idarəetməsinə, daha az korrupsiyaya və şəffaflığın artırılmasına nail olmaqdır **[4,5]**.Elektron varianta uyğun yeni dövlət və hökumətin qurulması konsepsiyasının müddəalarında nəzərdə tutlduğu kimi dövlət və hökümətin yeni əsaslar üzərində fəaliyyətini təşkili xüsusi əhəmiyyət kəsb edir. Dövlət strukturlarının əlaqələndirilməsi və ümumi quruluşun dəyişikləklərə uyğun təşkili ən başlıca məsələlərdən biridir. Respublikamızda dövlət qulluğun son dövrlərdə seçmənin xüsusi qaydada xarici müşahidəçilərin iştirakı ilə aparılması və korrupsiyaya qarşı mübarizənin güclənməsi, bu sahəyə aid verilmiş fərmanlar. İntellektual səviyyəli, gənc və daha bacarıqlıların idarələrə gəlməsinə şərait yaradır. Belə halda artlq yeni dövrün tələbi olan dövlət və hakimiyyət orqanlarının təşkili üçün münbit şərait yaranır. Elektron hakimiyyət və idarəetmənin təşkili və bütün pillələrdə olan dövlət strukturlarında fəaliyyətinin təminində elektron sənədlərin, informasiya məhsullarının və xidmətlərinin, müəllif hüquqlarının qorunmasının hüquqi əsaslarının yaradılaraq tətbiqi müstəsna əhəmiyyət kəsb edir. Son illər Respublikamızın müxtəlif xarici ölkələrin məşhur informasiya məhsulları istehsalçıları ilə sıx əlaqələri bu məsələnin həlli istiqamətində atılan mühüm addımlardır. Belə əlaqələrə Microsoft ilə olan 2008-ci ildəki əlaqələri, eləcə də HP və NEC şirkətləri ilə qurulmuş əlaqələri misal göstərmək olar. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı Azərbaycanda "Elektron hökumət"in formalaşdırılması prosesinə əlavə təkan vermişdir. Bu fərman İKT-nin ən yeni

nailiyyətlərinin tətbiqi ilə vətəndaş-dövlət münasibətlərinin yeni müstəvidə qurulmasında, şəffaflığın təmin olunmasında, korrupsiya və bürokratik amillərin aradan qaldırılmasında mühüm rol oynayır. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün "Dövlət Proqramı"na (Elektron Azərbaycan)" uyğun olaraq Azərbaycanda "Elektron hökumət"in tətbiqi dövlət orqanlarının vətəndaşlara və təşkilatlara təqdim etdiyi xidmətlərin keyfiyyətinin yaxşılaşdırılmasına, dövlət aparatının işinin effektiv və optimal olmasına xidmət etməyə yönəldilib **[1]**.

"Elektron hökumət"- müasir informasiya texnologiyalarından istifadə etməklə, dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq "Elektron hökumət"in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərmiş və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirmişdir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün "bir pəncərə" prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi "Elektron hökumət" portalı (www.e-gov.az) tətbiq edilmişdir **[2]**."Elektron hökumət" saytında təqdim edilən xidmətlərdən ayda təqribən 50 mindən çox insan istifadə edir. Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıdakı 425 xidmətdən 275-i "Elektron hökumət" və müvafiq dövlət qurumlarının portallarına inteqrasiya edilmişdir. Bu müddət ərzində təxminən 500 minə yaxın xidmət elektron formada əhaliyə göstərilmişdir. Statistika göstərir ki, vətəndaşlar bu xidmətlərə çox böyük maraq göstərirlər. Azərbaycanda elektron xidmətlərə ən çox müraciət edilən dövlət qurumu isə məhz Rabitə və İnformasiya Texnologiyaları Nazirliyidir. Bu elektron xidmətlər qanunvericiliyə müvafiq olaraq ümumilikdə 11 fəaliyyət növünə (telekommunikasiya və poçt xidmətləri, biometrik texnologiyaların yaradılması, fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və s.) lisenziyanın, habelə nömrə resurslarının ayrılması, təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin ölkədə yayılmasına, ixrac nəzarətinə düşən mallar üzrə və müəyyən əşyaların dövriyyəsinə xüsusi icazələr verilməsi üçün müraciətin və tələb olunan sənədlərin elektron formada qəbul edilməsini nəzərdə tutur. Hüquqi və fizik şəxslər nazirliyin www.mincom.gov.az internet saytının "Elektron xidmətlər" bölməsinə və ya www.e-gov.az e-hökumət portalına daxil olaraq müvafiq fəaliyyət növünü seçir və həmin fəaliyyət növünə uyğun olaraq açılan müraciət formasına elektron imzaları ilə təsdiq etdikləri ərizələri və müvafiq sənədlərin skan olunmuş surətlərini əlavə edərək göndərirlər. Bundan sonra onların e-poçtlarına müraciətlərinin statusu, təqdim edilmiş sənədlərdəki çatışmazlıqlar, qəbul edilən qərarlar və s. barədə bildiriş göndərilir. Bu elektron xidmətlərlə inzibati prosedurlar elektron formada həyata keçirilir və yalnız yekunda qanunvericiliyə uyğun olaraq lisenziyalar və icazələr fiziki şəxslərə şəxsən, hüquqi şəxslərin isə səlahiyyətli nümayəndəsinə imza etdirilməklə verilir. Fərmanın tələblərindən irəli gələrək, xidmətlərin göstərilməsi zamanı bəzi zəruri sənədlər müraciət edən şəxslərdən istənilmir və həmin sənədlər barədə məlumat elektron sorğular əsasında aidiyyəti dövlət orqanlarının informasiya ehtiyatından əldə edilir. Azərbaycanda elektron hökumətin formalaşdırılmasında əsas mərhələlərdən biri də elektron imzadan istifadənin təşkilinə xidmət edən Açıq Açar İnfrastrukturunun qurulması və Milli Sertifikat Xidmətləri Mərkəzinin istifadəyə verilməsidir. Elektron imzanın əldə edilməsi üçün respublikanın poçt şöbələrində qeydiyyat mərkəzləri yaradılmışdır. Elektron imza əhalinin

elektron hökumət xidmətlərindən geniş istifadəsinə şərait yaradacaq, ölkədə elektron ticarətin və bütövlükdə informasiya texnologiyalarının inkişafını yeni mərhələyə çıxaracaqdır.

Elektron idarəetmənin əsas məqsədi vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılmasından ibarətdir. Buna görə də, e-dövlətə qoyulan tələblər əsasən vətəndaşların ehtiyaclarından irəli gəlməlidir. Elektron idarəetmə dövlət İT sisteminin yeni növü hesab edilə bilər. Ümumiyyətlə, tələb dedikdə yalnız faktlar nəzərdə tutulmur, bura həmçinin əldə edilmiş informasiya və biliklər də daxildir. E-dövlətə qoyulan əsas tələblər aşağıdakılarla bağlıdır:

*Vətəndaşlar idarəetməyə cəlb olunmalı;
*Əsas plan milli İT planauyğunolmalı;
* Problem və tələblər bir-biri ilə uyğunlaşdırılmalı;
*Qarşıya qoyulan məqsəd, rəqabət qabiliyyətlilik, qısa müddətli və uzunmüddətli qiymətləndirmə dəqiqləşdirilməli;
* İT-in qiymətləndirilməsi üçün strategiya işlənilməli;
*Əsas İT planı davamlı olaraq nəzarət olunmalıdır **[5]**.

Prezident İlham Əliyevin ölkədə ən yeni texnologiyaların tətbiqi üzrə reallaşdırdığı tədbirlərin nəticəsidir ki, bu gün rəsmi sənədlərin verilməsi, vergi və gömrük bəyannamələrinin, statistik hesabatların, dövlət sosial sığortası üzrə hesabatların, sığortaolunanlar barədə məlumatların elektron şəkildə təqdim olunması, fərdi sahibkarların qeydiyyatı, məşğulluq orqanları vasitəsilə iş axtarışı, ali məktəblərə və dövlət qulluğuna qəbul üzrə test imtahanlarında iştirak, ünvanlı sosial yardım almaq üçün elektron ərizələrin qəbulu, əmlak üzərində yüklülük arayışının alınması və s. elektron formada tətbiq edilir. Proqressiv siyasi dəyişikliklərin vasitəçisi kimi, elektron idarəetməninməşhurlaşmasının vacibliyini dərk etmək lazımdır. Eyni zamanda bu anlayış insanların fikirlərinin və mövqelərinin sərhədləri aşaraq dünyanın müxtəlif yerlərinə çatması üçün bənzəri olmayan imkan yaradır. Lakin bu cür güclü bir platforma belə özü-özlüyündə yoxlanılmalıdır, onun tərkibində balans yaradılmalıdır və bu anlayış şəxsi mənafenin təmin olunmasına və ya insan hüquqları və digər hüquq pozuntularına gətirməməlidir.Beləliklə, bu qeyri-adi informasiya axını milyonlarla insanlara səslənə bilmək üçün nəhəng platformaya çevrilir.

**Nəticə:** Azərbaycanda elektron idarəetmənin müasir vəziyyəti hərtərəfli araşdırılmış və aşağıdakı nəticələr əldə olunmuşdur:

**1)** Respublikamızda elektron idarəetmənin tətbiqi zamanı dövlət idarəetməsinin çevikliyi və mütəhərrikliyi, struktur islahatlarının həyata keçirilməsi asanlaşır.

**2)** Banklar, kredit təşkilatları bütövlükdə maliyyə sistemində İKT-nin tətbiqi zamanı “rəqəmsal maliyyə” formalaşır ki, bu da öz növbəsində bank əməliyyatını tezləşdirir, uçotu asanlaşdırır, bəzi xərcləri azaldır.

**3)** Statistik təhlillər üçün sosioloji sorğuların aparılmasında İKT tətbiqi sorğu proseslərini sadələşdirir, ilkin informasiyaların dəqiqliyini artırır, bunun da nəticəsində yekun idarəetmə informasiyalarının daha düzgün və operativ əldə olunması təmin olunur.

**4)** Respublikamızda elektron idarəetmənin formalaşması müxtəlif dövlət qrumları ilə əhali arasında birbaşa təması aradan qaldırır, süründürməçilik və başqa neqativ hallar yaranmır, vətəndaş-məmur münasibətləri avtomatik tənzimlənir.

**5)** Müxtəlif növ kommunal xərclərin, elektron imzaların, hökümət portallarının yaradılması ödəmələri asanlaşdırır, vaxt itkisini azaldır, əhalinin öz asudə vaxtlarını daha səmərəli keçirməsinə imkan yaradır.

## Ədəbiyyat

**1.** G.İsmayılov, İnformasiya iqtisadiyyatının meydana gəlməsinin tarixi dövrləri, Bakı: Avropa nəşriyyatı, 2013, 412 s.

**2.**Bekkers V. J. J. M., Zouridis S. Electronic service delivery in public administration: some trends and issues // International Review of Administrative Sciences, 1999,

vol. 65, no. 2, pp. 183−196.
**3.**Bhatnagar S. E-Government: From Vision to Implementation, Sage Publications, India, 2004.
**4.** Carter L., Bélanger F. The Utilization of E-Government Services: Citizen Trust, Innovation and Acceptance Factors // Information Systems Journal, 2005, vol. 15, no. 1, pp. 5-25.
**5.**Chutimaskul W. E-Government Analysis and Modeling / 3rd International Workshop on "Knowledge Management in e - Government", 2002, vol. 7, pp. 112-123.

## Анализ и перспективы развития современного состояния электронного управления в Азербайджане

преподаватель Сабирзаде М.М.
Азербайджанская Государственная Академия Физической Культуры и Спорта

**Аннотация:** В настоящее время не существует ни одной сферы деятельности, где бы не применялись информационные технологии. Сегодня мы живем в информационном обществе и в информационной среде. Информатизация- это неизбежный период развития человеческой цивилизации. Это является таким средством, с помощью которого общество быстро и адекватно осознает себя, а также оперативно и эффективно решает задачи, стоящие перед обществом.
Широкое развитие информационных технологий дает толчок общему социально-экономическому развитию нашей страны, создает возможность для нормализации отношений между гражданами и чиновниками, а также способствует сокращению бедности. Таким образом,для дальнейшего развития нашей республики особое значение приобретает разработка национальной стратегии развития информационных технологий.

**Ключевые слова:** общество, социальная система, управление

## Analysis and prospects for the development of the modern state of electronic control in Azerbaijan

teacher Sabirzade M.M.
Azerbaijan State Academy of Physical Education and sport

**Annotation:** In the modern world, there is no area where the usage of information technology is not implemented. We live in the information society, in the information world. Informatization is the inevitable development stage of human civilization. This is a means by the help of what the society realizes itself quickly and adequately and the essential issues can be solved operatively and efficiently. Widespread usage of ICTs contributes to the overall socio-economic development of our country, the reduction of poverty facilitates the normalization of citizen-civil servant relations.

**Key words:** society, social system, management

## İDMAN NƏTİCƏLƏRİNƏ ƏSASƏN REQRESİYA TƏNLİYİNİN QURULMASI VƏ PROQNOZLAŞDIRMASI

Baş müəllim: Vəliyeva Şəhla
Müəllim: Əhmədova Aza
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

**Nəşr tarixi**
Qəbul edilib: 1 oktyabr 2019
Dərc olunub: 5 noyabr 2019
©2019 ADBTİA.Bütün hüquqlar qorunur.

**Annotasiya:** Tədqiqatda 2018-2019-cu ildə yüngül atletka üzrə 10 nəfər yığma